*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 13 dekabr 2017-ci il | № 94 (2211) | Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir.*

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü - dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əkillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.

AZƏRBAYCAN ORDUSU

# Müdafiə Nazirliyinin şəxsi heyəti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

*Dekabrın 12-də Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini anma günü Fəxri xiyabanı ziyarət edib.*



Görkəmli dövlət xadimi, böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqımızın və dövlətimizin tarixində özünə əbədiyyət abidəsi ucaldıb. Bu ömrün hər günü xalqa, millətə, dövlətə xidmətin örnəyidir.

Ulu öndər Heydər Əliyevin həlledici bir məqamda - 1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyinin əbədiliyinə hərtərəfli zəmin yaratdı.

Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışdı və buna nail oldu.

Bu parlaq şəxsiyyət Vətənini hədsiz dərəcədə sevirdi, xalqına, millətinə böyük sevgi ilə yaşayırdı. Bu dərin zəka sahibi hələ dövlət təhlükəsizlik orqanı kimi çox sərt rejimli bir strukturda çalışanda belə milli mənsubiyyəti ilə fəxr edib və qəlbində Azərbaycanın müstəqillik arzularını yaşadıb. Bu arzular özünü Ulu Öndərin bütün fəaliyyəti boyu aydın şəkildə büruzə verib.

Sabitliklə, dinamik-iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu da Ümummilli Liderin adı ilə bağlıdır. Hələ Sovetlər dövründə Ulu Öndər uzaqgörənliklə ölkəmizin gələcəyi naminə gənclərin müasir biliklərə yiyələnməsi və vətənpərvər ruhda formalaşması üçün əlindən gələni əsirgəməmişdi. Ümummilli Lider azərbaycanlıların hərbi peşələrə maraq göstərməsinə çalışır, bu istiqamətdə böyük işlər görürdü.

Ümummilli Liderin hakimiyyətə qayıdışı ordu quruculuğunda yeni mərhələnin əsasını qoydu, hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması başa çatdırıldı. Ordu ilə bağlı bütün problemlər həll edildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi.

Silahlı Qüvvələrin döyüş hazırlığının səviyyəsi tək hərbi texnikadan deyil, bu texnikanı idarə edə biləcək savadlı zabit heyətindən də əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan Azərbaycanda beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması diqqətdə saxlanıldı.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu siyasəti onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir.

Ümummilli Liderin xatirəsi Azərbaycan Ordusunun hər bir zabiti, giziri və əsgəri üçün əzizdir. Bu böyük şəxsiyyətin yaratdığı ordu bu gün Cənubi Qafqazın ən güclü ordusudur.

**"Azərbaycan Ordusu"**



## NASA-nın qadın astronavtı Silahlı Qüvvələrin Hərbi Akademiyasının qonağı olub

ABŞ-ın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə Bakıya səfər edən NASA-nın qadın astronavtı, "Space Shuttle" ekipajının üzvü, 1-ci dərəcli kapitan Haydemari Marta Stefanişin-Payper Silahlı Qüvvələrin Hərbi Akademiyasının qonağı olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə H.Payper Hərbi Akademiyanın professor-müəllim heyətinə və dinləyicilərə fəaliyyəti və kosmosa uçuşları barədə məlumat verib.

Azərbaycana ilk dəfə gəldiyini deyən NASA nümayəndəsi ölkəmiz haqqında təəssüratlarını da bölüşüb.

## Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 13-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.*

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik və onun səhra köməkçisi Oqnyen Joviç keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru, Gennadi Petrika və Saymon Tiller keçirəcəklər.

*Gənc zabitlərimiz*

## "Ordumuz unudulmayan tarix yazmağa qadirdi"

"N" hərbi hissəsində xidmət edən baş leytenant Məhəmməd Ağamalıyev, sözün əsl mənasında, Vətənə xidmət edənlərin önündə gedənlərdəndi. Onunla ön xətdə həmsöhbət olmaq imkanı qazanırıq. 1993-cü ildə Şirvanda dünyaya göz açan həmsöhbətim, 2010-2014-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alaraq həyatını orduya həsr edib.

- Zabitin xoşbəxtliyi ondadır ki, saf və müqəddəs bir ömür yaşasın və ömrünü torpaqlarımızın qorunmasına töhfə verəcək oğullarımızın bacarıqlı döyüşçülər kimi hazırlanmasına həsr etsin, - deyə baş leytenant Məhəmməd Ağamalıyev söhbətə başlayır. - Məşhur ədiblərdən biri belə deyib: "Kim ki, öz peşəsinə ancaq çörək mənbəyi kimi baxır, o, çörək tapacaq, amma ömrünün mənəvi boşluğunu o çörəklə doldura bilməyəcək". Ona görə də hər birimiz həyatımız Vətənə xidməti ömrümüzün mənası bilməliyik. İndiki zamanda - torpaqlarımızın işğalda olduğu bir vaxtda üzərimizə ikiqat məsuliyyət düşür.

Həmsöhbətim onu da qeyd edir ki, həyat düşündüyümüz qədər uzun deyil və insanı ölümsüz edən onun əməlləridir: "İnsan özünü o vaxt xoşbəxt sanır ki, ona çəkilən zəhməti yerdə qoymur və illər boyu gərgin əməyinin bəhrəsini görür. Üç ildir Azərbaycan Ordusu sıralarında xidmət edirəm. Sevindirici haldır ki, bu üç il müddətində Azərbaycan dövlətinin rifahı, onun torpaqlarının azadlığı, dünyada nüfuzunun qorunması naminə çəkdiyimiz zəhmət bəhrəsini verir. Azərbaycan əsgəri günü bu gün torpaqlarımızı azad etmək, 2016-cı ilin aprel qələbəsini təkrarlamaq əzmindədi, Lələtəpədə, Bayraqtəpədə dalğalanan bayrağımızı kənardan həsrətlə izlədiyimiz digər torpaqlarımızda da dalğalandırmaq qüdrətindədi. Bu da bizi bir zabit kimi sevindirir."



Zabitin qətiyyətinə görə, xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də Ali Baş Komandanımızın əmrini səbirsizliklə gözləyir. "Ordumuzun döyüş hazırlığı, maddi-texniki təchizatı, kifayət qədər silahsursatı, şəxsi heyətin ruh yüksəkliyi qələbəmizə əminlik yaradır. 2016-cı ilin aprel döyüşləri də göstərdi ki, biz işğal altındakı bütün torpaqlarımızı azad edəcəyik. Şəxsi heyətimiz bu müqəddəs yolda tarix yazmağa və xalqımızı sevindirməyə qadirdi.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Naxçıvanın sərhəd yaşayış məntəqələrində etibarlı müdafiə sistemi yaradılıb

*Ümummilli liderimiz Heydər Əliyev tərəfindən Naxçıvanda əsası qoyulan milli ordu quruculuğu prosesi bu gün Azərbaycanda uğurla davam etdirilir. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz inkişaf edərək müstəqilliyimizin təminatçısına çevrilib. Naxçıvan Muxtar Respublikasının müdafiəsi də etibarlı təşkil olunub, dövlət-ordu-xalq birliyinin möhkəm təməli yaradılıb. Dövlətin və xalqın dəstəyini üzərində hiss edən şəxsi heyətin döyüş ruhu isə günbəgün artır, sərhəd yaşayış məntəqələrimiz etibarlı müdafiə olunur.*





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədri Vasif Talıbov Babək rayonu ərazisində - hərbi hissənin əhatə etdiyi postda olub.

Əsgər və zabitlərlə görüşən Ali Məclisin sədri deyib: "Xidmətin nümunəvi təşkili bu ərazidə insanların rahat yaşayışını təmin edir. Vaxtilə bu ərazidə post yox idi. Lakin ölkəmiz inkişaf etdikcə ordumuz da qüdrətləndi, əsgər və zabitlər üçün hərtərəfli xidmət və yaşayış şəraiti yaradıldı. Bu sərhəd bölgəsində də yeni postlar yaradıldı, yol çəkildi, xidmət nümunəvi təşkil olundu."

Ali Məclisin sədri sərhədlərimizi etibarlı müdafiə etdiklərinə görə şəxsi heyətə təşəkkür edib, xidmətdə fərqlənənlərə hədiyyələr verib.

Əsgər Şükür Hüseynov minnətdarlıq edərək deyib: "Göstərilən diqqət və qayğının nəticəsidir ki, ucqar sərhəd bölgəsində hərbi xidmət nümunəvi təşkil olunub. Xidmətimiz üçün yaradılan şərait və şəxsi heyətlə bu cür görüşlərin keçirilməsi mübarizə əzmimizi daha da artırır. Biz burada bir ailə kimi yaşayır, xidməti qarşılıqlı hörmət və hərbi nizamnamənin tələblərinə uyğun qururuq. Şəxsi heyət "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün" prinsipinə əməl edir."

Sonra Ali Məclisin sədri təmas xəttində xidmətin təşkili ilə maraqlanıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev müdafiənin ön xəttində xidmətin təşkili haqqında məlumat verib. Qeyd olunub ki, ərazidə əlverişli hücum mövqeyi seçilib və möhkəm müdafiə potensialı yaradılıb, postlar müasir silah və texnika ilə təmin olunub, yeni səngər və əlaqə yolları çəkilərək əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb. Postlar arasında dayanıqlı rabitə əlaqəsi və rahat gediş-gəliş təmin edilib.

Həmin gün Ali Məclisin sədri hərbi bölmənin dayaq məntəqəsində də olub, şəxsi heyətlə görüşüb.

Əsgərləri salamlayan Ali Məclisin sədri deyib: "Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir silah-sursatla təminatına imkan verir. Vaxtilə bu ərazidə hərbi xidmət ağır şəraitdə həyata keçirilirdi. Lakin bu gün dayaq məntəqəsində və onun əhatə etdiyi postlarda nümunəvi xidmət şəraiti yaradılıb."

Ali Məclis sədri deyib: "Bu ərazidə yerləşən yaşayış məntəqələrində insanların rahat yaşayışının təmin olunması şəxsi heyətin xidmətinin təşkilindən asılıdır. Çünki ölkənin sərhədlərinin etibarlı qorunması vətəndaşların rahat yaşayışına və quruculuq işlərinin aparılmasına xidmət edir. Gərməçataq kəndində aparılan geniş quruculuq işləri və yaradılan müasir kənd infrastrukturu ona görə mümkün olmuşdur ki, Azərbaycan əsgəri öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir, torpaqlarımız etibarlı müdafiə olunur."

Ali Məclisin sədri xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətə təşəkkür edib, xidmətdə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırıb.

Əsgər Abbas Cabbarlı şəxsi heyət adından minnətdarlıq edərək deyib: "Dağ və sərhəd yaşayış məntəqəsində hərbi xidməti nümunəvi təşkil etmək üçün hər cür şərait yaradılıb. Müasir yaşayış və xidmət şəraiti hər bir əsgər və zabitin döyüş ruhunu daha da artırır. Fəxr edirik ki, Vətənimiz Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımızın müdafiəsində dayanmışıq. Yüksək döyüş ruhumuz vardır. Vətən sərhədində ayıq-sayıq dayanmışıq. Düşmənin istənilən təxribatının qarşısını almağa hazırıq."

Əsgərlər şəxsi heyət arasındakı birlik və bərabərliyin ifadəsi olan "Bir nəfər hamı, hamı bir nəfər üçün" şüarını səsləndiriblər.

Ali Məclisin sədri əsgərlərin məişət şəraiti ilə maraqlanıb.

Məlumat verilib ki, yüksək dağlıq şəraitdə yerləşən hərbi hissənin maddi-texniki təminatı, əsgərlərin məişət və xidməti şəraiti müasir tələblər səviyyəsində qurulub. Günün nizam qaydalarına uyğun olaraq xidmətin təşkilinə, əsgərlərin normal qidalanması, fiziki hazırlığına və sağlamlıqlarının qorunmasına diqqət yetirilir.

Ali Məclisin sədri müdafiə mövqeyinin möhkəmləndirilməsi və xidməti döyüş fəaliyyətinin təşkili barədə müvafiq tapşırıqlar verib.

Gətirilmiş müxtəlif ərzaq məhsulları və şirniyyatlar hərbi hissənin anbarına təhvil verilib.

Döyüş hazırlığı

# Tankçılar öncüllər sırasında

*Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, bu il tankçılar arasında keçirilən yarışmada cəbhə bölgəsindəki "N" hərbi hissəsinin tankçıları da fərqləniblər. Elə buna görə də qərargahda cavabdeh zabitlər tank bölüyündən qeydlər götürməyi məsləhət gördülər.*

- Artıq başa çatmaqda olan 2017-ci il bizim heyət üçün də əlamətdardır, çünki heyətimiz döyüş hazırlığı göstəricilərinə görə hərbi birliyin birincisi adını qazanıb, - deyə gizir Vasif Əliyev hərbçi peşəsinə hələ məktəbli çağlarında marağının yarandığını bildirir və bu işdə təcrübəli hərbi rəhbər Kamil müəllimin rolunu yüksək dəyərləndirir. - Kamil müəllim Azərbaycanın ilk müstəqilliyi dövründə könüllü döyüşçü olub və torpaqlarımızın işğalçılardan qorunmasına öz töhfəsini verib. O bizə dərsi tədris etməklə kifayətlənmirdi, həm də müharibə dövründən acılı-şirinli xatirələrini bölüşürdü. Bir sözü indiki kimi yadımdadır: əsl oğul Vətən ömrü yaşamalıdır, xalqına, dövlətinə sadiq olmalıdır. Elə bu hissləri dərk edib hərbçi olmağı qərarlaşdırdım.

Məhz tankçı olmağının səbəbini soruşduqda, "atam traktorçu olub və buna görə də erkən yaşlarımdan texnikaya marağım yaranıb", - dedi gizir. Ordu həyatında keçən ömrü isə faydasız ötüşməyib, aydan-aya, ildən-ilə hərbi səriştəsini artırıb, tankçı peşəsinin sirlərinə dərindən yiyələnib.

- Təlimdə qazandığımız uğurlarda komandirlərimizin, hər bir heyət üzvünün rolunu qeyd etmək yerinə düşərdi, - gizir bildirir. - Hərbi bölməmiz daim nizam-intizam göstəricilərinə, döyüş hazırlığına görə fərqlənib. Hər sahədə olduğu kimi, ordu mühitində də uğur qazanmağın sirri özünə tələbkarlıqdan, çalışqanlıqdan asılıdır. Bir məsəl var: zəhmət çəkərsən, bəhrəsini görərsən. Elə vaxtlar olub ki, həftələrlə gecəgündüz təlimlərdə olmuşuq, qışın soyuğuna da, yayın qızmarına da dözmüşük. Hərbçi olan adam ən çətin, ekstremal şəraitdə verilən tapşırığın öhdəsindən gəlməyi bacarmalıdır.

Kiçik çavuş Pərviz Süleymanov isə sürücü-mexanik vəzifəsindədir. Qazax rayonu Qaymaqlı kəndinin sakini olan gəncə görə, əsgəri xidmətdə hərbə yaranan marağı onun da peşə seçimində təsirsiz ötüşməyib. Elə müddətli hərbi xidməti dövründə komandanlığın vəsadəti ilə müvafiq təlim kursunu bitirib və taleyini Vətəni qorumaq peşəsinə bağlayıb. "Bir gün hərbçi olacağımı komandirimə bildirəndə tərəddüd etmədi, əksinə, məni ruhlandırdı ki, bu peşə mərdlərin, cəsurların peşəsidir. Xidmətimdən, komandirlərimdən çox razıyam, çətinliyim olanda silahdaşlarımın köməyini daim hiss etmişəm. İdarə etdiyim tankımla tezliklə Şuşanı, Qarabağımızı düşməndən azad edəcəyimiz günün həsrəti ilə yaşayıram."



Öyrənirəm ki, müsahibim aprel döyüşlərinin iştirakçısı olub. Bunu mənə tank heyətinin komandiri bildirmişdi. Elə buna görə də Pərvizdən tarixi aprel zəfərimizlə bağlı təəssüratlarını bölüşməsini istədim.

- Ali Baş Komandanımızın qeyd etdiyi kimi, ötən ilin aprelində düşmən üzərində olan qələbəmiz xalqımızın, dövlətimizin gücünü dünyaya sübut etdi. Qürurluyam ki, həmin qələbənin əldə edilməsində az da olsa payım vardır. Həmişə o günləri fərəhlə xatırlayıram. İnşallah, böyük qələbəmizin sevincini də xalqımıza bəxş edənlərin sırasında olacam, o günü səbirsizliklə gözləyirəm.

Əsgər Etibar Məmmədov da müqavilə əsasında müddətdən artıq həqiqi hərbi xidmətdədir. Ağstafa rayonundan olan gənc hərbçi heyətdə tuşlayıcı-operatordur. Üzərinə düşən tapşırıqların məsuliyyətini dərindən hiss etdiyini bildirən əsgər deyir ki, komandanlıq tərəfindən onların xidmətləri layiqli qiymətini alıb. "Ən böyük qiymətimiz isə böyük qələbə günündə olacaq. Axı həmin mükafat xalqın sevinci olacaq, ata-baba ocağına dönəcək yurddaşlarımızın gözlərinin parıltısı, ürəklərinin döyüntüsü olacaq. Hər birimiz qələbə sorağındayıq. Bu gün xalqımız da, dövlətimiz də bizə güvənir, hamı inanır ki, aprel zəfəri yenə təkrarlanacaq."

Tankçılarla söhbət etdiyim vaxt bir zabit yaxınlaşır. Öyrənirəm ki, baş leytenant Surac Kərimovdur, haqqında qeydlər götürdüyüm nümunəvi tank heyəti də onun komandiri olduğu bölmənin tərkibindədir. Bu il həmin heyətin hərbi birliyin tank bölmələri arasında yarışın birincisi olması gənc peşəkar zabiti də ruhlandırır.

- Hər bir heyətimizin uğuru məni də ürəkdən sevindirir, vaxtında da qiymətimiz verilir, - deyə baş leytenant bildirir. - Yuxarı komandanlıqların etimadı məsuliyyətimizi daha da artırır. Ən mühüm nailiyyətimiz isə torpaqlarımızın işğaldan azad edilməsi olacaq.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq

*Dekabrın 12-də Silahlı Qüvvələrin bütün qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmələr, xüsusi təyinatlı təhsil müəssisələrinin şəxsi heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini anma günü münasibəti ilə keçirilən mərasimlərdə iştirak edib. Hərbi qulluqçular bölgələrdə yerləşən Heydər Əliyev Mərkəzləri, eləcə də Ulu Öndərin abidələrini ziyarət edib və dahi şəxsiyyətin xatirəsini anaraq ehtiramlarını bildiriblər.*



Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümünə həsr olunmuş "Heydər Əliyev dühası xalqımızın ən zəngin sərvətidir" adlı ədəbi-bədii tədbirlərin keçirilməsinə start verildi.

Tədbirdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları, ictimaiyyət nümayəndələri, Bakı Dövlət Universitetinin müəllim və tələbə kollektivi iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyev və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təbliğat və hərbi kütləvi iş bölməsinin rəisi kapitan Ramil Qasımov çıxış edərək Ulu Öndərimizin şərəfli ömür yolundan, Vətənimiz qarşısında tarixi xidmətlərindən danışdı: "Xidmətlərinə görə Azərbaycan tarixinə düşmüş şəxsiyyətlərdən biri də ümummilli lider Heydər Əliyevdir. Heydər Əliyev keçmiş Sovet və müstəqilliyimiz dövründə Azərbaycana rəhbərlik edərkən ordu quruculuğu, hərbi kadrların hazırlığı məsələsinə də xüsusi diqqət yetirib. Hələ Sovetlər birliyi zamanında Azərbaycana rəhbərlik edərkən onu narahat edən məsələlərdən biri də azərbaycanlılar arasında hərbi kadrların çox az olması idi. Çar Rusiyası və Sovetlər dövründə azərbaycanlı gənclər hərbi xidmətə cəlb edilmir, onlara mübarizə əzmini unutdurmağa çalışırdılar. Bu siyasət Sovet hökuməti dövründə də davam etdirildi. Ancaq ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ordu quruculuğu, milli hərbi kadrların hazırlığı məsələsi daim ön plana çəkildi. Ümummilli Lider 1971-ci ildə böyük səylər nəticəsində general Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail oldu. O vaxt SSRİ-də iki belə məktəb vardı: Naximov və Suvorov adına hərbi məktəblər. Üçüncü belə məktəbin Azərbaycanda yaradılması böyük əhəmiyyət daşıyırdı. Bu gün məktəbin məzunları arasında yüksək rütbəli zabitlər, generallar var. Eyni zamanda Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində, eləcə də SSRİ-nin digər məktəblərində oxuması üçün tədbirlər gördü. Heydər Əliyevin SSRİ dövründəki ordu quruculuğu siyasəti müstəqillik qazandıqdan sonra da öz bəhrəsini vermişdir".

Bakı Dövlət Universiteti tarix fakültəsinin dosenti Atamoğlan Məmmədli çıxışı zamanı bildirdi: "Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Azərbaycan Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrildi. Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində ölkəmizin bütün sahələrində böyük dönüş yaratdı".



Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova isə çıxışı zamanı bildirdi ki, Ümummilli Liderin hakimiyyətə gəlişindən sonra dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələr, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi antiazərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Çıxışlardan sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında qısametrajlı film nümayiş etdirildi.

* * *

Böyük tarixi şəxsiyyətlər heç zaman unudulmur. Xalqımız üçün, dövlətçiliyimiz üçün yaşayan, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən ümummilli liderimiz Heydər Əliyev belə bir ömür yaşadı...



Dahi rəhbərin anım günü Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə "N" hərbi hissəsində də böyük ehtiramla qeyd edildi. "Heydər Əliyev dühası xalqımızın ən zəngin sərvətidir" adlı tədbirdə dahi rəhbərin ömür yolu, istər Sovet dönəmində, istərsə də müstəqillik əldə edildikdən sonra gördüyü işlər haqqında toplaşanlara əhatəli məlumat verildi.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi təbliğat və hərbi kütləvi iş bölməsinin rəisi kapitan Ramil Qasımov çıxışında Ulu Öndərin Azərbaycan naminə gördüyü işlərdən, qısa müddətdə dövlətçiliyimizi labüd iflasdan xilas etməsindən, vətəndaş müharibəsinin qarşısını alınmasından, siyasi sabitliyə nail olunmasından, Azərbaycanın iqtisadi inkişafının sürətlənməsindən, dünyanın aparıcı dövlətləri ilə ikitərəfli iqtisadi və siyasi əlaqələrin dərinləşdirilməsindən, "Əsrin müqaviləsi" kimi müqayisəyəgəlməz layihələrin gerçəkləşməsindən, Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlara qəbul edilməsindən, sosial həyatın bütün sahələrində nəzərəçarpacaq inkişafın təmin edilməsindən danışdı. "Dahi rəhbərin ordu quruculuğunda gördüyü işlərin bazasında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi irimiqyaslı islahatlar ordumuzun Cənubi Qafqazda ən güclü ordu olmasını təmin etdi. Azərbaycançılıq ideologiyasını dövlətçiliyin təməli bilən, istər daxili, istərsə də xarici siyasətdə məhz bu amili aparıcı amil edən dahi rəhbər həqiqətən müasir Azərbaycanın dövlətçilik memarıdır", - dedi.

Natiq toplaşanlara xitabən dedi ki, Ümummilli Liderimiz hərbçi peşəsinə yüksək dəyər verirdi. Bu inama, bu etibara sədaqət hər birimizin hərbi xidmət amalımızdır.

Mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova çıxışında Ümummilli Liderimizin mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin inkişafında gördüyü böyük işlərdən, dahi rəhbərin təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin beynəlxalq miqyasda keçirilməsindən, dünya azərbaycanlılarını eyni məfkurə ətrafında birləşdirmək məqsədi ilə Dünya Azərbaycanlılarının birinci qurultayının azərbaycançılıq ideologiyasında əhəmiyyətindən danışdı.

Tədbirin sonunda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi ədəbi-bədii kompozisiya təqdim etdi.

İstər çıxışlar, istərsə də bədii təqdimat əbədiyaşar bir ömürə ehtiram idi və bu ehtiram bir daha təsdiqlədi ki, ömrünü xalqımız, millətimiz, dövlətçiliyimiz üçün yaşayan Heydər Əliyevin dühası xalqımızın ən zəngin sərvətidir.

* * *

Gəncə şəhərindəki "N" hərbi hissəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirildi. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderin hərbi hissədə ucaldılmış abidəsi önünə əkillər qoyaraq xatirəsini yad etdilər. Sonra tədbir hərbi hissənin əsgər klubunda davam etdirildi.

Polkovnik-leytenant Rüstəm Məmmədov xalqımızın tarixində əbədi yer tutan, dünyada görkəmli dövlət xadimi kimi tanınan və çoxşaxəli fəaliyyəti nəsillərə örnək olan dahi şəxsiyyət Heydər Əliyevin həyatı, fəaliyyəti haqqında ətraflı məlumat verdi. Bildirdi ki, Heydər Əliyevin misilsiz tarixi xidmətləri sayəsində ölkəmiz bütün dövrlərdə inkişaf edib, tərəqqiyə nail olub. Müstəqillik illərində də Heydər Əliyev tərəfindən genişmiqyaslı layihələr, vacib islahatlar həyata keçirilib.

Silahlı Qüvvələrimizin inkişafı da Ulu Öndərimizin adı ilə bağlıdır. Ümummilli Lider tərəfindən yaradılan ordu quruculuğu strategiyası hazırda Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordumuz müasir tələblər səviyyəsində inkişaf etdirilir, gündən-günə gücləndirilir. Başlıca məqsədimiz düşmən tərəfindən işğal edilmiş Vətən torpaqlarını azad etməkdir. İnamla deyə bilərik ki, Silahlı Qüvvələrimiz bu vəzifəni yerinə yetirməyə qadirdir."

**(Ardı 5-ci səhifədə)**

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq

(Əvvəli 4-cü səhifədə)



Zabitlər Arif İsmayılov, Rəcəb Bəyalıyev, Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana sisteminin əməkdaşları Səidə Müseyibova, Elnarə Hüseynova və başqaları da Ulu Öndərin zəngin dövlətçilik təcrübəsi nəticəsində ölkəmizin bütün sahələrində yüksək inkişafa nail olunduğunu diqqətə çatdırdılar.

Gəncə şəhər Nəriman Nərimanov adına tam orta məktəbin şagirdləri dahi şəxsiyyətə həsr olunmuş şeirlər söylədilər.

Sonda Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirildi.

* * *

Türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından illər keçsə də, qədirbilən Azərbaycan xalqı heç vaxt öz xilaskarını unutmur, xatirəsini ehtiramla yad edir.



Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabit və kursantları Yasamal rayonundakı Heydər Əliyev Mərkəzini ziyarət etdilər, heykəlin önünə gül-çiçək dəstələri düzdülər. Qurumun nümayəndəsi Azər Zeynalzadə Heydər Əliyev Mərkəzinin yaranması haqqında zabit və kursantları məlumatlandırdı.

Bələdçilər Günel Paşayeva və Mayrux Hüseynova kursantlara ulu öndər Heydər Əliyevin keçdiyi həyat yolundan ətraflı danışdılar.

Kursantlar eksponatlara böyük maraqla baxdılar. Ümummilli lider Heydər Əliyevin ömür yolu ilə, müstəqil dövlətçiliyimizin qurulması naminə həyata keçirdiyi uğurlu islahatlarla yaxından tanış oldular.

Dəyərli eksponatlarla tanışlıqdan sonra Mərkəzin geniş zalında ulu öndər Heydər Əliyevin həyatının müxtəlif anlarını əks etdirən sənədli film nümayiş etdirildi.

Ziyarətdən sonra kursantlardan bir neçəsi təəssüratlarını bizimlə bölüşdü. Kursant İlham Babazadə dedi ki, bu gün mənim üçün çox əlamətdar oldu. "Ulu öndər Heydər Əliyevin şərəfli ömür yolunu daha da dərindən öyrəndim. Onun dövlət və ordu quruculuğu, iqtisadi islahatlar, milli şüurun dirçəlişi, ideologiyamızın inkişafı və formalaşması, gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsi ilə yaxından tanış oldum. XX əsrin ən böyük dühalarından olan görkəmli dövlət xadiminin həyat yolu və siyasi fəaliyyəti hər bir Azərbaycan vətəndaşı, zabiti, kursantı və əsgəri üçün nümunədir".

Kursantlardan Məmməd Məmmədli, İsaq Tağıyev, Hacıağa Əsgərli və başqaları da bu ziyarətdən məmnun olduqlarını bildirdilər.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində də Azərbaycan xalqının ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin, xüsusi təyinatlı təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək bildirdi ki, Heydər Əliyev hələ Sovetlər dövründə hakimiyyətə gəlişi zamanı Azərbaycanda taleyüklü işlər görmüşdü. "Onun bütün sahələrdə olduğu kimi, hərb sahəsində də çox dəyərli xidmətləri olub. Dahi rəhbərin müdrik siyasəti və yüksək təşkilatçılığı sayəsində Azərbaycanın ordusu yenidən formalaşdı. Müasir ordu quruculuğu strateqiyasının əsası məhz Ulu Öndərimiz tərəfindən yaradılıb".

Azərbaycan Hərb Tarixi Muzeyinin baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmaylov qeyd etdi ki, şəxsiyyətlərin gücü, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin də özünəməxsus yeri vardır. Türkiyənin tanınmış dövlət xadimi Bülənt Ecevit Heydər Əliyevin yalnız Azərbaycan xalqı qarşısında deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən böyük fəxrlə demişdi: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir".

Natiq çıxışına davam edərək bildirdi ki, Heydər Əliyevin hakimiyyətdə olduğu 30 illik dövr xalqımızın illərlə həsrətini çəkdiyi dövlət müstəqilliyinin əldə edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir. Ulu Öndərin Azərbaycana rəhbərliyinin 30 ilinin az qala üçdə ikisi Sovet dövrünə təsadüf etmişdir. Çıxışlardan sonra ulu öndər Heydər Əliyevə həsr olunmuş qısametrajlı sənədli film nümayiş etdirildi.



* * *

94 il əvvəl dünyaya bir ümid doğulur. O, sanki öz xalqının səsini duymuşdu. Bəli, həmin bu şəxs ümummilli lider Heydər Əliyev idi. Məhz onun apardığı siyasət bizi dünyaya tanıtdı. Azərbaycan müstəqilliyinə qovuşduğu çox çətin bir vaxtda Heydər Əliyev bizi öz şücaəti və güclü siyasəti nəticəsində xilas etdi. Sanki burulğanlı dənizdə gəminin kapitanı idi və onun idarə etdiyi sükan bizi dəhşətli tufandan xilas etdi. Elə bunun nəticəsində azadlığımıza tapındıq, müstəqil olduq. Bu gün kimdən Heydər Əliyev barəsində soruşduqda, o, inam və qürur hissi ilə onun xalqımız üçün gördüyü işlərdən danışacaq.

Bu gün, təəssüflər olsun ki, müdrik siyasətçi aramızda deyil. Ancaq bu fikri qəbul etmirəm. Çünki bu şəxs hər bir kəsin qəlbində, yaddaşında, əqidəsində yaşayır.

"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Heydər Əliyevin söylədiyi bu kəlam əsl uzaqgörənlik idi. Bu gün müstəqil Azərbaycanda müxtəlif mənşəli xalqlar azad və müstəqil yaşayır.

Heydər Əliyev həm də uşaqların dostu idi. Onları sevir və gələcəyin bir parçası kimi baxırdı. 2003-cü ildə mənim də 3 yaşım var idi. Hələ də yadımdadır. Öz baxça yoldaşlarımızla Heydər Əliyevin barəsində danışırdıq. Uşaq təfəkkürümüzlə onu əfsanəvi bir qəhrəmana bənzədirdik, ona həsr olunan şeirləri əzbərləyib bir-birimizə danışmağı özümüzə borc bilirdik. Ancaq indi müəyyən bir yaş dövrünə çatmışam və anlayıram ki, Heydər Əliyev qəhrəmandan da üstündür. Axı o, xilaskardır. Müstəqil Azərbaycanımızın, dövlətçiliyimizin xilaskarı...



Onun zamanında milli mətbuatımız da sanki tənəzzüldən çıxıb çiçəklənməyə başladı. Bunun nəticəsidir ki, Azərbaycanda 1998-ci ildə senzura ləğv edildi. Sanki jurnalistlərimiz əllərindəki qandallardan xilas oldular, ölkədə söz və fikir azadlığı təmin edildi.

Bu gün dahi rəhbər aramızda olmasa da, xalq üçün xidmətləri göz qabağındadır. Hamı onu böyük ehtiramla xatırlayır və ideyalarına sədaqət nümayiş etdirir. Fərəh və inam hissi ilə...

**"Azərbaycan Ordusu"**

# "Yaşar ürəklərdə, dillərdə adın..."

## Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

*Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı, şəhid tabor komandiri Əliyar Əliyevin xatirəsinə həsr olunmuş "Yaşar ürəklərdə, dillərdə adın..." mövzusunda anım mərasimi keçirilib.*





Mərasim açıq elan edildikdən sonra ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə çıxış edən Cəmşid Naxçıvanski adına Hərbi Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Kamran Nəsibov bildirdi ki, ermənilərin ölkəmizə əsassız torpaq iddiası və müdaxiləsi nəticəsində oğullarımız Vətənimizin qorunması uğrunda mübarizə apardılar. Belə oğullarımızdan biri olan Milli Qəhrəman mayor Əliyar Əliyev də Vətənimizin qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazdı. O, şəhid olsa da dövlətimiz və xalqımız qəhrəmanın xidmətlərini yüksək qiymətləndirdi. İndi Əliyar Əliyevin adı Azərbaycanın Milli Qəhrəmanları sırasında fəxrlə çəkilir.

Çıxış üçün söz alan Müdafiə Nazirliyinin zabiti polkovnik Sadiq Paşayev Əliyar Əliyevin həyat və fəaliyyəti haqqında qısa məlumat verdi, Milli Qəhrəmanın həyat yolunun gənclərə örnək olduğunu və onun xatirəsinin daim ürəklərdə yaşayacağını bildirdi.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun sektor müdiri yazıçı-jurnalist Hacı Abdulla bildirdi ki, Laçının müdafiəsi ilə bağlı aparılan mübarizədən danışanda ilk növbədə həmişə iftixar hissi keçirdiyimiz Əliyar Əliyev yada düşür. "Vətənpərvərliyi və cəsurluğu ilə çoxlarından fərqlənən bu cəsur döyüşçü Vətənimizin erməni hücumlarına məruz qaldığı elə ilk gündən torpaqların müdafiəsinə qalxdı. Onun yaratdığı və komandiri olduğu özünümüdafiə taboru düşmənə tutarlı zərbələr vururdu. Əliyar Əliyev həmişə ön cərgədə vuruşaraq döyüşçüləri öz arxasınca aparırdı. 1992-ci ilin oktyabrında şəhid olan Əliyar Əliyev ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görüldü.

Bakı şəhərin Nizami rayonundakı 12 nömrəli məktəbin 4-cü sinif şagirdi, Məmməd Araz bədii qiraət müsabiqəsinin qalibi İbrahim Əhmədov tədbirdə "Azərbaycan əsgəri" şeiri ilə çıxış etdi.

Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə çəkilən və Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevə həsr olunan "Pəhləvan komandir" adlı qısametrajlı film nümayiş etdirildi.

Milli Qəhrəmanın xatirəsinə həsr olunan tədbir marş və hərbi vətənpərvərlik mahnılarının sədaları altında başa çatdı.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissələrdə park-təsərrüfat günü keçirilib

*Qoşunların hazırlıq planına uyğun olaraq, Müdafiə Nazirliyinin tabeliyində olan bütün hərbi hissələrdə park-təsərrüfat günü keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, günün nizam qaydalarına əsasən şəxsi heyət parklarda hərbi texnikaya qulluq göstərib və zabitlərin nəzarəti altında texniki baxışdan keçirilən döyüş vasitələri növbəti dərs həftəsinə hazırlanıb.

Silah təmizləmə otaqlarında əsgərlər ötən həftə ərzində təlim mərkəzləri və poliqonlarda keçirilən məşğələlərdə, atışlarda istifadə etdikləri silahlara qulluq göstərib və təmizlənən silah-sursat müvafiq qaydada saxlanclarda mühafizəyə götürülüb.

Hərbi hissələrin ərazisindəki qərargah binaları, zabit və əsgər yataqxanaları, yeməkxanalarda da təmizlik işləri aparılıb, camaşırxanada yataq dəstləri, paltarlar yuyulub, yaşıllaşdırma tədbirləri, həmçinin digər təsərrüfat işləri həyata keçirilib.



# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunan Ağdərə yaşayış məntəqəsində yerləşən Ermənistan ordusunun bölmələrindən birində qarşılıqlı nizamnamə münasibətlərinin pozulmasına görə həbs olunan hərbi qulluqçular David Bağikyan, Aşot Gantarcan və kiçik çavuş Aşot Gevorkyan barəsində cinayət işi açılıb.

Hərbi qulluqçu Zakaryan isə kobud intizam pozuntusuna yol verdiyi üçün həbs edilib.

* * *

İşğal altında olan Madagiz yaşayış məntəqəsindəki hərbi bölmələrdən birində isə hərbçilər Arutunyan və Danagyan arasında baş verən münaqişə sonradan davaya səbəb olub. Nəticədə hər iki hərbi qulluqçu müxtəlif bədən xəsarətləri alıb.

* * *

Ermənistan ordusu tərəfindən işğal olunmuş Madagiz yaşayış məntəqəsində yerləşən düşmən ordusunun hərbi hissələrindən birində qulluq edən hərbçi məzuniyyətdə olarkən polis tərəfindən həbs edilib.

Hərbi hissə komandiri tərəfindən məzuniyyətə göndərilən, ikinci taborun hərbi qulluqçusu Rafael Barsamyan Yerevan şəhərində yaxalanıb.

Sonradan məlum olub ki, R.Barsamyan hərbi xidmətə çağırılmamışdan əvvəl törətdiyi cinayətə görə polis tərəfindən axtarışda imiş.

* * *

Son vaxtlar ön xətdə döyüş növbətçiliyinin aparılması qaydalarının pozulmasına görə Ermənistan ordusunda cinayət məsuliyyətinə cəlb olunanların da sayı artmaqdadır.

Bu günlərdə məlum olub ki, işğal altında olan Ağdərə yaşayış məntəqəsində yerləşən düşmən ordusu bölmələrindən birinin zabiti Yervand Xaçatryan həbs edilib. Onun döyüş növbətçiliyinin aparılması qaydalarını pozduğuna görə saxlanıldığı və barəsində cinayət işi açıldığı bildirilir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***11 dekabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 117 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***12 dekabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 121 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Voskevan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# “Şəhadət” filmi hərbi hissələrdə nümayiş etdirilib

*Cəbhəboyu zonada yerləşən "N" hərbi hissəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə çəkilmiş "Şəhadət" filmi nümayiş etdirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Komitənin Yevlax bölgəsi üzrə şöbə müdiri Natiq Əfəndiyev, şöbənin əməkdaşı Rahib İbrahimov, hərbi hissənin əsgər və zabit heyəti iştirak edib.



Hərbi hissənin zabiti polkovnik-leytenant Babək Səmidli ölkəmizdə ictimai-siyasi sabitliyin və dünyaya nümunə ola biləcək tolerantlıq mühitinin olduğunu vurğulayıb. O, tolerantlığın milli mənsubiyyətindən, dinindən asılı olmayaraq, hər bir azərbaycanlının həyat tərzinə çevrildiyini diqqətə çatdırıb. Zabit "Şəhadət" filminin hərbi hissələrdə nümayiş etdirilməsinin təqdirəlayiq hal olduğunu və bu cür maarifləndirmə tədbirlərinin mütəmadi keçirilməsinin əhəmiyyətini qeyd edib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov Komitənin sifarişi ilə çəkilmiş "Fitnə", "Vandalizm" filmləri barədə tədbir iştirakçılarına məlumat verib, bu ekran əsərlərinin dini maarifləndirmə sahəsindəki uğurlu nəticələrindən danışıb. O, Azərbaycan xalqının əsrlər boyu sahib olduğu milli-mənəvi dəyərlərin qorunub saxlanılması, bu sahədə mövcud potensialın inkişafı, vicdan azadlığının təmin olunması, ölkədə dövlət-din münasibətlərinin demokratik əsaslar, ümumbəşəri dəyərlər və dünyəvilik zəminində formalaşdırılması istiqamətində görülən tədbirləri xüsusi vurğulayıb.

Sonra radikalizmin formalaşması, yayılması metodları, əhatə dairəsi barədə məlumat verən Komitə sədrinin müavini bu zərərli tendensiyaya qarşı mübarizə çərçivəsində milli-mənəvi dəyərlərimizin təbliğinin genişləndirilməsi istiqamətində həyata keçirilən maarifləndirmə tədbirlərinin ən səmərəli vasitə olduğunu bildirib.

"Şəhadət" filmi nümayiş etdirildikdən sonra tədbir iştirakçıları film barədə təəssüratlarını bölüşüblər.

* * *

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2017-ci il üçün birgə tədbirlər planına əsasən cəbhəboyu zonada yerləşən hərbi birlikdə tədbir keçirilib.

"Gənclərin tərbiyəsində islam dininin rolu" mövzusunda keçirilən görüşdə çıxış edən hərbi hissənin zabiti polkovnik-leytenant Rasim Manafov qonaqları salamlayaraq şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasında Müdafiə Nazirliyi rəhbərliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin xidmətlərini xüsusi vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Siyavuş Heydərov çıxış edərək hərbi vətənpərvərlik tərbiyəsində islamın rolundan, islami dəyərlərin milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olmasından, xalqımızın əsrlər boyu yaratdığı və qoruduğu milli-mənəvi dəyərləri mənimsəmədən, ona yaxından bələd olmadan əsl vətəndaş, əsl döyüşçü yetişdirməyin mümkün olmamasını qeyd edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Şəhadət" sənədli filminə kütləvi baxışdan sonra tamaşaçılar film haqqında fikir və təkliflərini bildiriblər.

Tədbirin sonunda qonaqlar hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub, əsgər və zabitlərlə görüşüb, hərbi hissədən xoş təəssüratla ayrılıblar.

# “Bayrağımız - qürur mənbəyimizdir!” mövzusunda tədbir keçirilib

*Dekabrın 7-də Binəqədi rayon Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynov adına 83 saylı məktəb-liseydə İnnovativ Təşəbbüslər İctimai Birliyinin təşəbbüsü və Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə "Bayrağımız - qürur mənbəyimizdir" adlı tədbir keçirilib. Tədbirdə Müdafiə və Təhsil Nazirliklərinin, Bakı şəhər Baş Təhsil İdarəsinin əməkdaşları, şəhid ailələrinin üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.*



Tədbir iştirakçıları ilk olaraq məktəblilərin əl işlərindən ibarət sərgi ilə yaxından tanış olublar. Uşaqların əl işlərində əsasən Azərbaycanın qədim dövlətlərinin bayraqları, simvolları və atributları öz əksini tapıb. Həmçinin məktəblilərin ifasında bayrağa həsr edilən şeirlər səsləndirilib. Çıxış üçün söz alan məktəb-liseyin direktoru Nəbi Mahmudov bildirib ki, Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. "Bayrağımız qürur mənbəyimiz, and yerimizdir. Müqəddəs bir varlıq kimi üçrəngli bayrağımıza and içirik. Xalqımızın qəhrəmanlıq tarixindən gələn bu ənənə bu gün də hər bir vətəndaşımızın məsuliyyət hissini daha da artırır. Bayraqda təcəssümünü tapan rəmzlər insanın dünyagörüşünü formalaşdırır. Azərbaycan bayrağı qəhrəmanlarımızın bizə etibar etdiyi ən böyük, ən qiymətli yadigarıdır."

Müdafiə Nazirliyinin rəhbərliyi adından məktəb-liseyin direktoruna üçrəngli bayrağımız təqdim edilib.

Müdafiə Nazirliyinin dövlət qulluqçusu Zümrüd Səmədova çıxışı zamanı qeyd edib ki, Dövlət Bayrağı millətimizin, xalqımızın azadlıq və istiqlal ideallarının, milli varlığının təcəssümüdür. "Üçrəngli, ay-ulduzlu bayrağımız hər bir ölkə vətəndaşının inam və güvənc yeridir. Məhz buna görə ümummilli liderimiz Heydər Əliyev bu müqəddəs dövlət simvolu haqqında danışarkən demişdi: "Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".

Tədbirdə şəhid anaları adından Nigar Qasımova və Lalə Quliyeva söz alaraq bildiriblər ki, aprel döyüşləri ordumuzun qəhrəmanlıq nümunəsidir, onların hər biri gənclər üçün qəhrəmanlıq nümunəsinə çevrilib. Onlar əminliklə vurğulayıblar ki, şəhid qanına boyanan əzəli və əbədi Azərbaycan torpaqları Azərbaycan Ordusu tərəfindən tezliklə düşmən işğalından azad olunacaq və üçrəngli bayrağımız həmin torpaqlarda dalğalanacaqdır.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Heydər əl-Abadi: İraq torpaqları İŞİD-dən tam azad olundu



İraqın Baş naziri Heydər əl-Abadi İŞİD terror qruplaşması ilə müharibənin zəfərlə sona çatdığını, ölkənin bütün ərazisində dövlət bayraqlarının asıldığını elan edib.

Baş nazirin sözlərinə görə, hökumət qüvvələri İraq-Suriya sərhəd üzərində nəzarəti tam bərpa edib və bununla da İŞİD-ə qarşı müharibə yekunlaşıb.

## Rusiya hərbi hissələrinin Suriyadan çıxarılması prosesi başlayır



Dekabrın 11-də səhər saatlarında Suriyanın Xmeymim bazasına gələn Rusiya Prezidenti Vladimir Putin ordu hissələrinin bu ölkədən çıxarılması prosesinə başlamaq barədə göstəriş verib.

Putin Müdafiə naziri və Baş qərargah rəisinə hərbi kontingentin əksər hissəsini Rusiyaya qaytarmağı tapşırıb. RF Prezidentinin sözlərinə görə, ölkəsinin silahlı qüvvələri və müdafiə sənayesi kompleksi ordunun və donanmanın yüksək döyüş qabiliyyətinə malik olduğunu nümayiş etdirib.

## İstanbulda “Qüds İslamındır!” şüarı ilə böyük mitinq keçirilib



İstanbulda ABŞ-ın Qüds İsrailin paytaxtı kimi tanınmasına etiraz mitinqi keçirilib.

Mitinq Səadət Partiyasının təşkilatçılığı, "Qüdsü İslamındır!" şüarı ilə keçirilib. Etiraz aksiyasına Türkiyənin aparıcı QHT-ləri də dəstək veriblər.

## Fələstində etiraz aksiyaları zamanı mindən artıq insan xəsarət alıb



İordan çayının qərb sahilində, Qəzza sektorunda və Qüdsdə etiraz aksiyaları zamanı mindən artıq insan yaralanıb.

Bu barədə Fələstinin Səhiyyə Nazirliyi məlumat yayıb.

Fələstinin Qızıl Aypara cəmiyyəti isə xəsarət alanlardan 60-a yaxınının odlu silahdan açılan atəş nəticəsində yaralandığını bildirib.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Trampın Qüdsün İsrailin paytaxtı kimi tanınması və Amerika səfirliyinin bu şəhərə köçürülməsi barədə qərarı ilə əlaqədar fələstinlilər etiraz aksiyalarına başlayıb. Etirazlar sonradan İsrailin güc strukturları ilə toqquşmalara səbəb olub.

## Yaponiya, ABŞ və Cənubi Koreya KXDR sərhədlərində birgə təlimlərə başlayıblar



Yaponiya, ABŞ və Cənubi Koreya dekabrın 11-də Koreya Xalq Demokratik Respublikasının sərhədləri yaxınlığında birgə hərbi dəniz təlimlərinə başlayıblar.

İki gün davam edəcək təlimlərdə sürətlə aşkaretmə sistemləri ilə təchiz edilmiş ABŞ hərbi-dəniz qüvvələrinin "Stethem" esminesi, Cənubi Koreyanın "Soe Yu Sonnyon" və Yaponiyanın "Çyokay" gəmiləri iştirak edir.

Yaponiya Müdafiə Nazirliyinin bildirdiyinə görə, təlimlərin məqsədi hərbi dəniz qüvvələrinin taktiki potensialının yüksəldilməsi və üç ölkə arasında əməkdaşlığın möhkəmləndirilməsidir. Təlimlər zamanı hərbçilər Şimali Koreya tərəfindən ballistik raketlərinin şərti buraxılışı ilə əlaqədar gəmilər arasında informasiya mübadiləsinin təşkili üzərində işləyirlər.

**AZƏRTAC-ın materialları əsasında**

*Orxan Şaiq GÖKYAY*

## Bu Vətən kimin?

Bu Vətən - torpağın, qara bağrında,
Sıra dağlar kimi duranlarındır.
Bir tarix boyunca onun uğrunda,
Özünü tarixə verənlərindir.

Tutulub kül olan ocaqlarından,
Şahlanıb köpürən irmaqlarından,
Hüdutlarda qəza bayraqlarından,
Alnına işıqlar vuranlarındır...

Ardına baxmadan yollara düşən,
Şimşək kimi çaxan, sel kimi coşan,
Hüdutdan hüduda yol bulub qoşan,
Cəbhədən cəbhəni soranlarındır.

İrəli atılıb sellərcəsinə,
Köksündən vurulub tam ərcəsinə,
Bir gül boxçasına girərcəsinə,
Bu qara torpağa girənlərindir.

Tarixin dilindən düşməz bu dastan,
Nəhrlər qazidir, dağlar qəhrəman.
Hər daşı bir yaqut olan bu Vətən,
Can verme sirrinə ərənlərindir.

*Arif Nihat ASYA*

## Qalx, igidim

Qalx, igidim, yenə dağ başını duman aldı...
Parçalandı bir qitənin torpaqları.
Aslan payını aslan olmayan aldı...
Qalx, igidim, yenə dağ başını duman aldı...

Həm çinli, həm çinsiz başlar alayı...
Qanadlı, qanadsız quşlar...
Aşılmamış dağlar, çıxılmamış yoxuşlar...
Dağları, daşları axar sularıyla
Bu canımız torpaqda
Bir böyük dünya parçası
Fatehimi aramaqda
Dünyanı axirətdən ayıran
Divarları yıx da gəl!
Bu qırmızı üfüqdən çıx da gəl!

Qalx, igidim, yenə dağ başını duman aldı...
Parçalandı bir qitənin torpaqları.
Aslan payını aslan olmayan aldı...
Qalx, igidim, yenə dağ başını duman aldı...

*Zəlimxan YAQUB*

## Köksüz ağac

Qürbətə salmasın Allah adamı,
Qürbət axırına çıxır adamın.
Qaralır ocağı, səngiyir şamı,
Köksüz ağac kimi yıxır adamı.

Tökülüb üstünə həsrətin yaşı,
Yuxum ərşə çıxıb, gecə yarıdı.
Qəlbimdə atamın kövrək dünyası,
Yuxumda anamın laylalarıdı.

Gözümün içində yuva saldı çən,
Qəlbimə xaraba, virana dedim.
Dedilər, Allahdan nə istəyirsən,
Bir Vətən söylədim, bir Ana dedim.

*İsa İSMAYILZADƏ*

## Baxdınız

Qışda sizi görməmişdim, a dağlar,
Mənə yaman fağır-fağır baxdınız.
Çalmanızı başınıza dolayıb,
Ləngərlənib, ağır-ağır baxdınız.

Qar içində boyunuz da bəstədi,
Bir doyunca sizi görmək istədim,
Yaxınlaşıb əl də vermək istədim -
Gülümsünüb, nağıl-nağıl baxdınız.

Gün çıxanda qar uçdumu, a dağlar,
Duman-çiskin qarışdımı, a dağlar,
Belə dolu yağmışdımı, a dağlar?
Dərələrə noğul-noğul baxdınız.

Bir qonaq var, heyran qalıb boyuna,
Ha qışqırsın - hay verməzsən hayına...
...Qan-qadalı illərin o tayına
Yaraqlanıb, yağı-yağı baxdınız.

Quşlar uçar, qanad salar bu yerdə,
İgidlərin adı qalar bu yerdə...
Qulağıma səslər gəldi... səngərdə
Nərə çəkib oğul-oğul baxdınız.

Mənə yaman fağır-fağır baxdınız,
Ləngərlənib ağır-ağır baxdınız,
Gülümsünüb, nağıl-nağıl baxdınız -
Qışda sizi görməmişdim, a dağlar.

### Könlüm şeir istəyir

# Şeir ovqatı - qələbə ovqatı



Şeir duyumdu, duyğudu. Bu və ya digər fikir poetik şəkildə ifadə ediləndə daha təsirli, daha həssas olur. Bu baxımdan oxucu yaxşı, yüksək poetik dəyərə malik olan şeiri onun ifadə etdiyi mətləbləri, mahiyyəti oxuya-oxuya yaşayır, yaşaya-yaşaya oxuyur. Vətən, torpaq, ata yurdu, ... kimi ifadələrin dərk edilməsi səviyyəsi dünya duyumu ilə bağlıdı və həssas oxucu bu mövzuda yazılmış şeirlərin cazibəsinə düşür, Vətən məfhumunu, torpaq məfhumunu daha həssaslıqla yaşadır. Abbas Səhhətin "Vətən" şeiri, bu şeirin son misraları yüz ildi hər bir vətəndaşın yaşam amalıdı: **Vətəni sevməyən insan olmaz.**

Və yaxud, xalq şairi Fikrət Qocanın

***Vətən gözdü, biz kirpik,***
***Gözümüzün keşiyini çəkirik, -***

misraları. Bu və bu kimi poetik fikirlər ruhumuzdan süzülən bir mətləbin işığı təsirindədi: ömür Vətən üçündü. Səngərlərdə dayanıb döyüş növbətçiliyi aparan əsgərlərimizin dünyagörüşünün formalaşmasında, mənəvi-psixoloji hazırlığının yüksəlməsində, şübhəsiz ki, belə şeirlərin, belə poetik nümunələrin də təsiri olur.

Şəhidlik torpaqsevərliyin təzahürüdü və şəhidliyə, şəhidlərə həmişə ehtiramımız olub.

Vətən naminə döyüşənlər bilir ki,

***Ömrə yazılmır hər ötüşən il,***
***İllərin önündə nə sın, nə əyil!***
***Qardaşım, ömürdən ölümə deyil,***
***Ölümdən ömürə gedənlərdənik! -***

misraları Azərbaycan əsgərinin vətənsevərlik tezisidi, şeir ovqatıdı - qələbə ovqatıdı.

Yüksək poetik dəyərə malik vətənpərvərlik şeirləri oxucuların dünya duyumu üçün Dan Ulduzudu. Dan Ulduzunun işığını səhərin nurunun gəlişi bilirik. Və yanılmırıq...

**"Azərbaycan Ordusu"**

*Əli SƏNGƏRLİ*

## Banıçiçəyim mənim

Banıçiçəyim mənim,
Burma birçəyim mənim.
Mayası türk, soyu türk,
Əsli gerçəyim mənim.

Köhlən atın kəhəri,
Zər naxışlı yəhəri,
At üstündə açırdı
Ulularım səhəri.

Ərlər doğan ər anam,
Gedişi hünər anam,
Dəliləri harayla,
Köməyə göndər, anam.
Qarabağda talan var,
Şuşaya od salan var.
Kafirlərin əlində
Əsirlikdə qalan var.
Gözlərimiz yoldadı,
Qoç igidlər hardadı?!
Bu gün sınaq günüdü,
Azərbaycan dardadı...

*Gülağa TƏNHA*

## Vətən çağırır səni

Döyüşlərdə qardaşı
Şəhid olan qardaşım,
Bahar buludu kimi
Vaxtsız dolan qardaşım,
Vətən sevgindən doğan
Qeyrətindi silahın,
Xəlil Rza demişkən,
Nifrətindi silahın.

Səni, şəhid qardaşı,
Yağı tapdağı altda
Qalan torpaq çağırır.
Düşmənin nəfəsindən
Donan bulaq çağırır.
Yiyəsi şəhid olan
Qanlı yaraq çağırır.
Sərhəddə dalğalanan
Qanlı bayraq çağırır.

Vətən çağırır səni,
Çatıbdı qisas dəmi.
Sən şəhid qardaşısan,
Döyüş şəhidlər kimi,
Qayıt qazilər kimi!

*Xaqani QAYIBLI*

## Məndən keçmək olar...

Zaman peşman olub öz gördüyünə,
Bu dərd çəkilməz ki, çəkilməz, atam!
Dərd batman gələndə düşər düyünə,
Fəqət, açılmaz ki, açılmaz, atam!

Tarix fürsət güdür gözlərində qan,
Tanrı öz hökmünü yeritsin hardan?!
...Bizim alnımıza yazılmışlardan,
Vallah, qaçılmaz ki, qaçılmaz, atam!

Kösöyü qaralmaz, yanar bu ocaq,
Ağrı qucaq-qucaq, dərd qucaq-qucaq...
Bu dərdi yaşamaq mümkündür, ancaq,
Heç vaxt ölçülməz ki, ölçülməz, atam!

Gəlməz bir ölçüyə bu ağrı, bu qəm,
Təpədən-dırnağa yas içindəyəm!
...Ocağın başında oturub düşmən,
Dostdan seçilməz ki, seçilməz atam!

Ömrün bu gününü yaşamaq çətin,
Bir də bu günlərə qayıtmaq çətin...
Məndən keçmək olar, mənə nə var ki?
Vətən keçilməz ki, keçilməz, atam!

*Adil CƏMİL*

## Yaşı çoxdur göz yaşımın

Kimsə bilməz sabahını,
Gedən bilməz nədən gedir.
Bölünürsən aya, günə,
Vaxtın gedir, vədən gedir.

Bu dünyanın min rəngi var,
Matəmin də çələngi var....
Həyatın öz ahəngi var -
Gələn gəlir, gedən gedir.

Olacaqdan olmaz qaçan,
Sahibinə qalmaz bu can.
Göy üzünə ruhdur uçan,
Yer altına bədən gedir.

Bəlasıyam öz başımın,
Yaşı çoxdur göz yaşımın.
Şəhid olan soydaşımın
Kimliyində Vətən gedir...

*Rəşid FAXRALI*

## Göyərdək

Ümid dediyimiz can məlhəmini,
Torpaqda göyərdək, daşda göyərdək.
Yollara baxmaqdan göz əldən düşüb,
Kirpikdə göyərdək, qaşda göyərdək.

Haram yellər əsib, söz seçə bilmir,
Çəmən irdələyib, düz seçə bilmir...
Çiçəklər nə vaxtdı şeh içə bilmir,
Gətirib payızda, qışda göyərdək.

Elə tutulub ki, bəti-bənizi,
Ölüncə o dağlar tanımaz bizi...
Yaşın bu çağında qəhərinizi
Bənövşə misallı tuşda göyərdək.

Dərdimiz dillənir illərdən bəri,
Bu dərddən Allahın yoxdu xəbəri.
Qanadı qırılmış xatirələri
Ağılda göyərdək, huşda göyərdək.

Ayrılıq bassa da dünya üzünü,
Söndürə bilərmi qəlbin közünü?
Vətən kəlməsini, Vətən sözünü
Ürəkdə cücərdib, başda göyərdək.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 766
Nüsxə 4600